# Sarsılmaz birliyin müttəfiqlik zirvəsi



**Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər yeni reallıqlar yaratdı və ən önəmlisi qardaş Türkiyə ilə uğurla yüksələn münasibətlər yeni bir mərhələyə qədəm qoydu. Bu mərhələnin əsasını isə ötən il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşada imzalanan Bəyannamə təşkil edir. Şuşa Bəyannaməsi iki ölkə arasında müttəfiqlik münasibətlərini rəsmiləşdirən tarixi sənəddir. 2021-ci il iyunun 15-də ölkəmiz üçün əlamətdar Milli Qurtuluş Günündə mədəniyyət paytaxtımız Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsi Türkiyə ilə qardaşlıq münasibətlərimizin daha da güclənməsinə imkan yaratdı, ölkələrimiz arasında olan münasibətlərin inkişafında yeni səhifə açdı.**

Milli Qurtuluş Günündə imzalanan Şuşa Bəyannaməsi bir millətin, iki dövlətin əbədiyyətə qədər birlikdə olacağının nümayişidir. Bəyannamənin siyasi əhəmiyyətini ana xəttini Azərbaycan və Türkiyə liderlərinin strateji baxış bucağı, prinsipial və qətiyyətli mövqeləri, tarixi ənənələrə sədaqəti, gələcəyə inamı təşkil edir. Məhz Azərbaycan və Türkiyə prezidentlərinin bütün manelərə, risklərə baxmayaraq, qəbul etdikləri cəsarətli qərarlar Türkiyə-Azərbaycan ittifaqını tarixi gerçəkliyə çevirib. Şuşa Bəyannaməsinin siyasi əhəmiyyəti həm də milli iradənin böyük cəsarət və uzaqgörənliklə icra olunmasıdır. Şuşa Bəyannaməsi iki qardaş ölkənin əbədi birliyini, ittifaqını bir daha elan etməklə yanaşı, regionda davamlı sülh, əməkdaşlıq, təhlükəsizlik və inkişaf üçün yeni imkanlar yaradır. Bu imkanlardan yararlanmaq istəyənlər Azərbaycan ilə Türkiyənin yanında yer alacaq, bölgənin sabitliyinə, inkişafına və təhlükəsizliyinə öz töhfələrini verəcək, xalqların firavan həyatlarını təmin edəcəklər.

Azərbaycan-Türkiyə münasibətləri Vətən müharibəsi zamanı tarixin sınağından layiqincə çıxaraq daha da möhkəmləndi. Torpaqlarımızın azad olunması ilə nəticələnən 44 günlük savaş günlərində beynəlxalq ictimaiyyət iki ölkə arasında qardaşlığın möhkəmliyini və sarsılmazlığını bir daha gördü. Vətən müharibəsində Azərbaycanın haqq işini qətiyyətlə dəstəkləyən Türkiyə qardaşlıq və mənəvi missiyasını yerinə yetirdi. 15 iyun - Milli Qurtuluş Günündə isə Azərbaycan-Türkiyə münasibətlərinin tarixində məzmun və keyfiyyətcə yeni mərhələnin təməli qoyuldu. Bu baxımdan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərinə səfəri mühüm tarixi hadisə idi. Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi strateji tərəfdaşlığın növbəti təcəssümüdür. Azərbaycan-Türkiyə qardaşlığı hazırda çox böyük uğurla davam etdirilir. Şuşa Bəyannaməsi prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın timsalında iki qardaş, dövlətin dostluğunun dünyaya daha bir nümayişi oldu. Azərbaycan Prezidenti bunu nitqində xüsusilə vurğulamışdır: “Keçən il iyunun 15-də - Milli Qurtuluş Günündə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzalayaraq Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı".

Zəngəzur dəhlizinin reallaşması ilə Türkiyə və Azərbaycan arasında münasibətlərin inkişafı yeni mərhələyə qədəm qoyacaqdır. Bəyannamədə mühüm geosiyasi əhəmiyyətə malik olan Zəngəzur dəhlizinin açılması ilə bağlı ifadələrin çox açıq şəkildə öz əksini tapması böyük əhəmiyyətə malikdir. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır.

Qardaş ölkənin Baş Konsulluğunun Qala şəhərimizdə açılacağı barədə daha bir xoş xəbərin verilməsi isə Türkiyə və Azərbaycan arasında diplomatik münasibətlərin yeni səviyyəyə qaldırılması deməkdir.

Ən önəmli məqamlarından biri iqtisadi əlaqələrin gücləndirilməsidir. Bəyannamədə milli iqtisadiyyatın və ixracın diversifikasiyası, idxal-ixrac proseslərinin sürətli tənzimlənməsi, Cənub Qaz Dəhlizi layihəsinin effektiv şəkildə genişləndirilməsi istiqamətində səylərin artırılması, Azərbaycan-Türkiyə arasında beynəlxalq nəqliyyat dəhlizinin və eləcə də tranzit-nəqliyyat potensialının artırılması, Azərbaycan-Türkiyə arasında kommunikasiya əlaqələrinin daha da genişləndirilməsi xüsusi olaraq vurğulanıb. Bəyannamədə tarixi Zəngəzur dəhlizinin açılması barədə qərarların qeyd olunması da bəyannamənin gələcək tarixi, iqtisadi və siyasi potensialının gücünü ortaya qoyur.

Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərini qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir.

Dünyada və regionda cərəyan edən hərbi-siyasi proseslərin gərginləşməsi hər bir dövlətin təhlükəsizliyinin təminatçısı olan, ordu quruculuğu sisteminin daha sivil və modern üslubda inkişafını tələb edən faktorlardan biri kimi dəyərləndirilir. Müharibədən zəfərlə çıxan Azərbaycanda ordu quruculuğunun "Türkiyə modeli"nə keçidi xüsusilə diqqətlə izlənilir. Prezident İlham Əliyev də Türkiyə ordusunun kiçik modelini quracağımızla bağlı anons vermişdi. Şuşa Bəyannaməsi isə bu yöndə əlavə imkanlar yaradır. Çünki bəyannaməyə görə, ölkəmizə qarşı hər hansı üçüncü dövlətin hərbi təhdidi, müdaxiləsi olarsa, Azərbaycan və Türkiyə birgə mübarizə apara bilərlər. Bu da özlüyündə iki ordunun mütəmadi birgə hərbi təlimlər keçməsini, Azərbaycanın NATO-da ikinci güclü ordu olan türk silahlı qüvvələrinin təcrübəsindən faydalanmaq imkanlarını genişləndirir. Bu baxımdan, Azərbaycanın müasir standartlara uyğun ordu quruculuğu işi bundan sonra daha intensiv, sistemli və kompleks şəkil alacaq. Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardımla bağlı məsələlərə də yer verilməsi olduqca önəmlidir. Bu, onu göstərir ki, ölkələrimiz bundan sonra da hər zaman bir yerdə olacaq, bir-birinin təhlükəsizliyinə töhfə verəcəklər. Təbii ki, qarşılıqlı hərbi təcrübənin öyrənilməsi olduqca vacibdir. Eyni zamanda, müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi də sənəddə əksini tapan məsələlər sırasındadır. Bununla ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əlaqələr daha da inkişaf edəcək.

*Şuşa Bəyannaməsi bir millət, iki dövlətin əbədi birlikdə olacağının nümayişidir*

Bu il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak ediblər. Ulu öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qurulmuş dostluq və qardaşlıq münasibətləri bu gün Prezident İlham Əliyevin siyasi xəttinin prioritetini təşkil edir. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir, Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik" sözləri hər birimizə qürur və iftixar verir. Prezident İlham Əliyev nitqində Azərbaycan ilə Türkiyənin dünya miqyasında bir-birinə ən yaxın ölkələr olduğunu və bu dövlətlərin çox böyük sınaqlardan uğurla keçdiklərini də diqqətə çatdırıb: "Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var - o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik".

Bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan və Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir.

**Mustafa KAMAL,**
**"Respublika".**